# Vahid Milli İmtahanlar

# 2021

**Vahid Milli İmtahanlar üçün qeydiyyat haqqında ətraflı məlumat**

**Qeydiyyat prosesi bu il də bir neçə mərhələdən ibarət olacaq:**

Abituriyentlər 1 mart saat 10: 00- dan 31 mart saat 18 :00-a qədər Qiymətləndirmə və imtahan mərkəzinin qeydiyyat vebsəhifəsində yalnız onlayn rejimdə (internetlə) qeydiyyatdan keçə bilərlər (online.naec.ge). Bu müddət ərzində abituriyent fərdi məlumatlarını doldurmalı, imtahan ərkəzinin yerini ( şəhəri) və keçiləsi fənnləri seçməlidir.

Qeydiyyat üçün əsas tarix (31 mart) bitdikdən sonra abituriyentlər Vahid Milli İmtahanlar üçün qeydiyyatdan keçə bilməyəcəklər.

**2021-ci il 31 mart saat 18.00-dan sonra abituriyent qeydiyyat sənədində qeydiyyat mərkəzini (şəhər) dəyişdirmək hüququna malik deyil.**

Abituriyent qeydiyyatın ikinci mərhələsində 15 aprel 18:00-a qədər keçiləsi fənni dəyişə (silə, əlavə edə), imtahan dilini və ya müsabiqəni (yaradıcılıq turunu) seçə biləcəkdir. Məsələn, abituriyent riyaziyyatı seçibdir, lakin tarix imtahanını vermək qərarına gəldi. Bu zaman ərzində həm fənni, həm də imtahan dilini dəyişdirmək mümkün olacaq (məsələn, abituriyent gürcü dilində ümumi bacarıq imtahanını azərbaycan və ya erməni dillərində ümumi bacarıq imtahanı ilə əvəz edə bilər və s.).

**15 apreldən** sonra abituriyent fənn siyahısında heç bir dəyişiklik edə bilməyəcək.

Təhsil proqramlarının siyahısına gəldikdə, Vahid Milli İmtahanlar Testinin qiymətləndirilməsi iləəlaqədər etiraz ərizəsı ilə bağlı bütün fənn komissiyaları tərəfindən verilən qərarlarının dərc edildiyi zamandan etibarən bir sonraki gün daxil olmaqla abituriyentlərin qeydiyyat formasında təhsil proqramlarını işarə etmək və dəyişdirmək imkanları olacaq. Tarixi veb sayta yerləşdiriləcək.

**Qeydiyyat müvəffəqiyyətlə başa çatdıqda, abituriyentin qeydiyyat səhifəsində doldurduqu məlumatlar (fənnlərın siyahısı, imtahan mərkəzinin yeri (şəhər) və seçilmiş təhsil proqramları) görünəcək,hansıları ki çap etmək / yaddaşda saxlamaq mümkün olacaq.**

**Qeydiyyatı təsdiq edən son sənədi yaddaşda saxlamaq/çap etmək vacidbir, çünki, bu sənədi təqdim etmədən qeydiyyat və qeydiyyat məlumatlarının dəyişdirilməsi iləəlaqəli şikayət mərkəz tərəfindən qəbuledilməyəcək.**

**Şifrənizi başqasına verməyin. Qeydiyyat ərizəsində göstərilən məlumatların düzgünlüyünə və ona edilən sonrakı dəyişikliklərə görə yalnız siz məsuliyyət daşıyırsınız.**

Şəxsi məlumatları doldurarkən abituriyent müvafiq sahədə mobil nomrəsini (şəhər nömrəsini yox) göstərərsə sistemə giriş üçün lazım olan şifrəni göstərilən nömrəyə qısa mətn almaqla bərpa edə bilər. telefon nömrəsi kodla və boş yerlər buraxılmadan yazılmalıdır (məs: 595XXXXXX).

Əgər imtahan zamanı abituriyentə xüsusi şərtlər/xüsusi imtahan mühiti lazımdırsa, müvafiq xananı qeyd etməlidir və sağlamlıq vəziyyəti haqqında müvafiq arayışı (forma №100) Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzinə təqdim etməsi və ya Təhsil Resurs Mərkəzindən gondərməsi vacibdir.

Bu abituriyentlər müvafiq sənədləri (mərkəz direktorunun adına ərizə, şəxsiyyət vəsiqəsinin surəti, sağlamlıq haqqında arayışın surəti) qiymətləndirmə və imtahanların elektron poçt ünvanına göndərə bilərlər: **gancxadebebi@naec.ge.** (15 aprel 2021 daxil olmaqla).

Vacib sahələri doldurduqdan və veriləcək fənlərin siyahısını işarələdikdən sonra **abituriyent yaddaşda saxla düyməsini basır**, bundan sonra o ekranda qeydiyyatı uğurla keçdiyi barədə bildirişi, həmçinin şəxsi səhifəsinə daxil olduqda istifadə edəcəyi beş rəqəmli kodu görəcəkdir. Bu kod abituriyentlərəqeydiyyatda göstərilən mobil nömrəyəqısa mətn mesajı şəklində də göndəriləcəkdir.

Qeydiyyatı tamamladıqdan sonra abituriyentin ərizəsini saxlaması və ya çap etməsi lazımdır. Qeydiyyat və ya qeydiyyat məlumatlarının dəyişdirilməsi ilə bağlı şikayətə yalnız şəxs xüsusi proqramdan qeydiyyat sənədini saxladıqda və ya yazdırdıqda icazə verilir.

Abituriyent milli imtahan testinin qiymətləndirilməsi ilə əlaqədar şikayət ərizəsi haqqında bütün fənn komissiyaları tərəfində qəbul edilən qərarların dərc olunduğu gündən növbəti gün də daxil olmaqla təhsil proqramlarını prioritet siyahısı dəfələrlə dəyişdirə bilər. Şəxsi nömrəsi və şifrəsi (beş rəqəmli kod) ilə öz səhifəsinə daxil olur, istədiyi dəyişiklikləri edir və məlumatları saxlayır. Yuxarıda göstərilən müddət bitdikdən sonra abituriyent təhsil proqramlarının prioritet siyahısını dəyişə bilməz

Qeydiyyat üçün video təlimatlara **www.naec.ge** saytında baxmaq mümkündür

**Ödənişin mümkün vasitələri və bank xidmət haqqı:**

- "Gürcüstan Bankı" Xidmət Mərkəzləri ilə - ödənişə0,5 lari xidmət haqqı əlavə olunur;
- Epay.ge veb saytında – ödənişə 1 lari xidmət haqqı əlavə olunur;
- "Gürcüstan Bankının" özünəxidmət terminalı ilə - ödənişə 1 lari xidmət haqqı əlavə olunur;
- "Gürcüstan Bankının" internetbank vasitəsi ilə - ibank.ge -ödənişə 1 lari xidmət haqqı əlavə olunur;
- OPPA.ge özünəxidmət terminalı ilə - ödənişə0,5 lari xidmət haqqı əlavə olunur;
- Mərkəzin veb səhifəsindən - ödənişə 0,5 lari xidmət haqqı əlavə olunur;

Siz ümumi təhsilinizi təsdiq edən sənədi 2011-ci ilə qədər alıbsınızsa 2021-ci il 20 iyun daxil olmaqla bu sənədin surətini milli qiymtləndirmə və imtahan mərkəzinə, regionlarda isə ərizələrin vahid avtomatik idarəetmə sistemini ( eflow) istifadə edərək mərkəzə göndərilməsini təmin edən təhsilin resurs mərkəzlərinə təqdim etməlidir. Sənədin surəti həmçinin elektron post vasitəsi ilə ganxcadebebebi@naec.ge ünvanına da qəbul edilir. ərizə ilə birlikdə sənədə şəxsiyyət vəsiqəsinin surəti də əlavə edilməlidir.

Nəzərə alın: Mərkəz abituriyentin ümumi təhsil aldığını təsdiq edən sənədin surətini tapa bilmdiyi halda abituriyentdən attestatın surətinin mərkəzə təqdim oumasını tələb edə bilər! Belə olan təqdirdə, abituriyentin imtahan kartında attestatın surətinin mərkəzə təqdim olunması haqqında tələb yerləşdiriləcəkdir. Beləliklə, abituriyent yalnız imtahan kartında tələb göstərildiyi təqdirdə attestatı mərkəzə təqdim etmək məcburiyyətindədir. Həmin vaxtda (2021-ci il 20 iyun daxil olmaqla) ümumi təhsili təsdiq edən sənədi təqdim etməlidirlər:

- İşğal olunmuş ərazilərdə tam ümumi təhsil almış abituriyentlər;
- Gürcüstanda həyata keçirilən xaricdə tanınmış ümumi təhsil proqramının tamamlanması nəticəsində verilmiş təhsil sənədi olan (tam ümumi təhsil sənədinə bərabər olan və təhsilini növbəti pillədə davam etdirmək hüququ olan) abituriyenlər.
- 20 iyun 2021-ci il tarixi daxil olmaqla Milli Təhsil Keyfiyyətnin İnkişaf Mərkəzi tərəfindən Gürcüstanda həyata keçirilən xaricdə tanınan ümumi təhsil proqramının tamamlanması haqqında verilmiş arayış təqdim etməlidirlər.

Xarici ölkədə tam ümumi təhsil almış abituriyentlər 20 avqust 2021-ci il tarixinədək Milli Qiymətləndirmə və İmtahan Mərkəzinə müvafiq təhsili təsdiq edən sənəd təqdim etməlidirlər. Xarici vətəndaş kimi Vahid Milli İmtahana qeydiyyatdan keçən ikili vətəndaşlığı olan şəxs müvafiq şəxsiyyət sənədini 20 iyun 2021-ci il tarixinədək Milli Qiymətləndirmə və İmtahan Mərkəzinə təqdim etmək məcburiyyətindədir.

Abituriyentlər fərdi qeydiyyat səhifəsindən (abituriyentin imtahanlarını, təhsil proqramlarını seçdiyi, nəticələrinə baxdığı səhifə) istənilən hər hansı bir kompüterdə imtahan kartlarının elektron versiyasını çap edəcəklər.

Nəticələri öyrənmək üşün identifikasiya kodunuzu qeyd edin və ya yadınızda saxlayın!

Gurcu dili üzrə hazırlıq proqramını seçərkən abituriyent ümumi bacarıq testinin dilinə diqqət yetirməlidir;

**Gürcü dili üzrə hazırlıq təhsil proqramlarına yalnız Gürcüstan vətəndaşları verə bilərlər.**

- Ali təhsil müəssisəsinin gürcü dilində hazırlıq təhsil proqramı üçün nəzərdə tutulmuş yerlərə qeydiyyataalınacaq abituriyentlər erməni və ya azərbaycan, abxaz və ya osetin dilində ümumi qabiliyyət testindən keçməlidirlər. Bu abituriyentlər gürcü dilində bir illik hazırlıq təhsil proqramında (60kredit) təhsillərini davam etdirmək hüququnuəldə edəcəklər. Bu proqramı bitirdikdən və müvafiq sertifikat aldıqdan sonra tələbələrəlavə imtahan vermədən, öz seçimlərinə müvafiq olaraq,təhsillərini həmin universitetin təhsil müəssisəsinin bakalavr (4 il – 240 kredit), stomatologiya(5 il – 300 kredit), tibb (6 il – 360 kredit), inteqrasiya edilmiş müəllim hazırlığı üzrə bakalavr-magistr və ya veterinariyanın inteqrasiya edilmiş bakalavr-magistr təhsil proqramlarıyla (5 il – 300kredit) davam etdirəcəklər. Gürcü dili hazırlıq proqramında qazanılmış dövlət qrantı növbətimərhələnin maliyyələşdirilməsi üçün köçür.

Gürcü dili üzrə hazırlıq proqramı üçün Düvlət təhsil qrantı necə verilir?

Dövlət tərəfindən maliyyələşdirmə (100 % məbləğində) bu təhsil proqramları üçün xüsusi olaraq azərbaycan və ya erməni dilində, abxaz və osetin dilində ümumi bacarıq imtahan testinin nəticələrinəəsasən ayrılan məbləğ daxilində təmin edilir. Reytinq siyahısı, imtahan dilinə görə.ş ümumi bacarıq/ abxaz dili/ osetin dilinn nəticələrinəəsasən tərtib olunur (məsələn, erməni dilində ümumi bacarıq imtahanı verenlər üçün ayrıca bir reytinq siyahısı tərtib olunur, analoji olaraq, azərbaycan dilində, abxaz və ya osetin dilinndə ümumi bacarıq imtahanı verənlər üçün ayrı reytinq siyahısı tərtib olunur).

**İncəsənət – yaradıcılıq/idman proqramlarına qəbul olmaq üçün abituriyentə necə ki ali təhsil müəssisəsininmüəyyən etdiyi müsabiqədən və eyni ilə aşağıdakı fənlərdən keçmək vacibdir:**

**Gürcü dilində hazırlıq təhsil proqramını** başa vurduqdan sonra abituriyent təhsilini incəsənət – yaradıcılıq və ya idman təhsil proqramında davam etməyi düşünürsə,vahid milli imtahanların yalnız azərbaycan ve ya erməni, osetin və ya abxaz dilində ümumi qabiliyyət imtahanıverir.

**Hərbi ali təhsil müəssisəsində təhsillərini davam etdirmək istəyənlər vahid milli imtahanlaradək hərbi alitəhsil müəssisəsi tərəfindən müəyyən edilmiş qaydada müvafiq müsabiqəni keçməlidirlər, bunun üçün birbaşa ali təhsil müəssisəsində qeydiyyatdan keçirlər və vahid milliimtahanları verirlər:**

Gürcü dili hazırlıq proqramında təhsilini davam etdirmək üçün erməni ve ya azərbaycan dilində, abxaz və ya osetin dilində imtahan (bu bənd yalnız Gürcüstan vətəndaşlarına aiddir).
Tam ümumi təhsilini xarici ölkədə alan abituriyentlər müvafiq təhsilini təsdiq edən sənədi **2021-ci il 20 avqust daxil olmaqla** Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzinə təqdim etməlidirlər;

Eyni və ya müxtəlif ali təhsil müəssisələrinin akademik və/ya gürcü dili hazırlıq proqramında təhsilinizi davam etdirmək üçün müraciət edə bilərsiniz.

**Abituriyent qeydiyyat ərizəsini doldurarkən nəzərə almalıdır:**

- Təhsil proqramı akkreditə olunmuşdur yoxsa yox (akkreditə olunmamış proqram dövlət təhsil qrantı tərəfindən maliyyələşdirilmir);
- Akkreditasiya müddəti;
- Ali təhsil müəssisələri tərəfindən minimal kompetensiya həddi artırılıb yoxsa yox;
- Təhsil proqramı üçün xüsusi tələblər qeyd edilibdirmi;
- Ali təhsil müəssisəsi tərəfindən təhsil proqramına verilən imtahan üçün təyin edilən əmsal (əmsalları təyin edərək ali təhsil müəssisəsi təhsil proqramı üçün daha çox və ya daha az prioritetli imtahan fənlərini müəyyənləşdirir, müsabiqə balları əmsallara uyğun olaraq dəqiq hesablanır);
- Fənlərin prioritetliyi (əgər iki və ya daha çox abituriyent təhsil proqramı üçün ayrılmış yerlərdə eyni müsabiqə balını yiğsa bu zaman zaman fənlərin prioritetliyi nəzərə alınacaq).

**Unutmayın, seçdiyiniz təhsil proqramlarının sayı məhdud deyil! Həmçinin nəzərə almalısınız:**

– Təhsil proqramının təhsil haqqı;
– Təhsil proqramının tədris dili;
– Bu təhsil proqramına görə tədris hansı şəhərdə keçirilir;
– Hər hansı bir funksional pozuntu olduqda (motorik, eşitmə, görmə və s.) xüsusi bir xana doldurulur. Abituriyent, həkimin verdiyi müvafiq sağlamlıq vəziyyəti haqqında arayışı (forma N100) **2021-ci il 15 aprel daxil olmaqla** Milli İmtahanlar və Qiymətləndirmə mərkəzinə təqdim etməlidir.
– **Qeyd olunan tarixdən sonra sağlamlıq vəziyyəti haqqında arayış təqdim edildiyi təqdirdə, abituriyent xüsusi şərtlərdən istifadə edə bilməyəcək. 2021-ci il 15 apreldən sonra funksional pozuntu meydana gəldiyi təqdirdə, abituriyent sağlamlıq vəziyyəti haqqında arayışı bu pozuntunun meydana gəlməsindən bir gün keçməmiş Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzinə təqdim etməlidir;**
– İmtahandan əvvəl və ya imtahan müddətində yoluxucu xəstəlik müəyyən edildikdə, Mərkəzin abituriyent üçün xüsusi şərait yaratmasını təmin etmək üçün Milli Qiymətləndirmə və İmtahan Mərkəzinə dərhal imtahandan əvvəl xəbərdarlıqverilməlidir;
– İmtahandan əvvəl və ya imtahan müddətində abituriyentin tutulması/həbs olunması halında, Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzinə dərhalməlumat verilməlidir ki, Mərkəz abituriyentin imtahana buraxılmasını təmin etmək üçün müvafiqtədbirlər həyata keçirsin.

**Unutmayın ki, 30 Martdan sonra abituriyentlər imtahan şəhərlərini dəyişdirə bilməyəcəklər. Həmçinin, Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzi abituriyentləri başqa bir imtahan mərkəzinə köçürmək imkanını özündə saxlayır.**

**Qeydiyyat ərizəsində təhsil proqramlarını işarə etmək və dəyişmək, Vahid Milli İmtahanlar testinin qiymətləndirilməsi ilə bağlı şikayət ərizələri haqqında bütün fənn komissiyaları tərəfindən verilən qərarların dərc edildiyi gündən bir sonraki gün daxil olmaqla, mümkün olacaq.**

**İmtahan kartları**

**Abituriyentlər imtahan kartlarının elektron versiyalarını istənilən kompüterdə şəxsi səhifələrindən** (abituriyentin imtahanları, təhsil proqramlarını seçdiyi, nəticələrini gördüyü səhifə) çap edəcəklər.
**Kartda aşağıdakı məlumatlar verilib:**

- **Abituriyentin identifikasiya kodu;**
- **İmtahan mərkəzinin ünvanı;**
- **Hər bir imtahanın tarixi;**
- **İmtahana qeydiyyatın başlama vaxtı..**

**İmtahan mərkəzləri harada açılacaq?**

2021-ci ildə  aşağıdakı şəhərlərdə imtahan mərkəzləri açılacaq: Batumi, Zuqdidi, Kutaisi, Poti, Axalçixe, Qori, Ozurqeti, Tbilisi, Rustavi, Telavi, Xulo.

Abituriyentlər imtahan kartlarını istənilən əlçatan kompüterdə şəxsi səhifələrindən (abituriyentin imtahanları, təhsil proqramlarını seçdiyi, nəticələrini gördüyü səhifə) çap edəcəklər. İmtahan kartında tələbənin identifikasiya kodu, imtahan mərkəzinin ünvanı, hər bir imtahanın tarixi və qeydiyyata başlamaq vaxtı göstəriləcəkdir. İmtahan kartı şəxsiyyəti təsdiqləyən sənədlə birlikdə bütün imtahan müddəti ərzində abituriyentin giriş icazəsi olacaqdır. **Nəticələri öyrənmək üçün identifikasiya kodunuzu yadda saxlayın.**

**İmtahan zamanı abituriyentin yanında nə olmalıdır?**

– İmtahan kartı;
–Şəxsiyyəti (yaşayış) təsdiqləyən sənəd/pasport və ya Dövlət Xidmətlərinin İnkişafı Agentliyinin ərazi xidmətinin möhürü və səlahiyyətli şəxsin imzası ilə təsdiqlənmiş sənəd/ərizə-anket/çap edilmiş sənəd və ya  şəxsin şəkli, adı, soyadı və şəxsiyyət nömrəsi başqa bir sənəd;

Arzuladığınız halda jelli (tuj  adlandırılan) qara rəngli, 0,5-0,7 mm diyircəkli ucu olan qələm.

**Yalnız cavab vərəqi yoxlanılır!**

Bütünimtahan mərkəzlərində, qeydiyyat bölgələrində və sektorlarında video kamera quraşdırılacaq, bütün imtahan prosesi qeyd ediləcək və video arxiv yaradılacaq; İmtahan vaxtı başa çatdıqda və ya abituriyent tapşırığı erkən başa bitirdikdə, müşahidəçi abituriyentin cavab vərəqini və ştrix kodunu yoxlayır, bunu abituriyent  imzasıyla təsdiqləyir və sonra müşahidəçi cavab vərəqini qəbul edir; İmtahan prosesi bu şəkildə tamamlanır. Cavab vərəqələri möhürlənərək Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzinə göndərilir.

**Abituriyent imtahan zamanı ona qarşı qaydaların və test presedurlarının pozulduğunu hiss edərsə nə cür davranmalıdır?**

Bu vəziyyətdə, abituriyent **imtahan günü saat 21: 00-dək** imtahan verdiyi İmtahan Mərkəzinin Rəhbərliyinəərizə (Vahid Milli İmtahanlar test prosedurunun müəyyən edilmiş qaydalarının pozulması faktı ilə bağlı ərizə) ilə müraciət etməlidir. Ərizə ertəsi gündən gec olmayaraq şikayət komissiyasına təqdim olunur vəərizə alındıqdan sonra beş gün ərzində baxılır. Ərizəni yazan **cavabı qərar alındıqdan iki gün ərzində öyrənir**.

Nəzərə alın ki, **abituriyent xəbərdarlıq verilmədən imtahandan çıxarılır:**

- Lüğət, köməkçi materiallar, "Şparqalka", mobil telefon, tablet, elektrik saat, kalkulyator və ya digər elektron avadanlıqlar aşkarlanarsa (elektron cihaz söndürülsə də);
- Nizamın kobud pozulduğu və ya imtahan prossesində iştirak edən şəxsin təhqir edildiyi və ya digər oxşar hallarda;
- Alkoqol, narkotik və ya psixotrop maddələrın təsiri altında olduği halda.

**Sadalnanlardan başqa, abituriyent istənilən qayda pozuntusuna görə xəbərdarlıq alır.** İkinci xəbərdarlıq alınan zaman, müşahidəçi abituriyenti imtahandan çıxarmağa məcburdur.

İmtahanın bitməsinə 10 dəqiqə qalmış, müşahidəçi sizə testi vaxtında bitirməyiniz üçün vaxtı sizə xatırlatacaqdır;
Yalnız əvvəlcədən xüsusi şərtlər tələb edən və müvafiq tibbi arayış təqdim etmiş abituriyentlərə Mərkəzdə yaradılan komissiya (qeydiyyata alınmış funksional qüsuru olan aplikantların təqdim etdiyi məlumatları nəzərdən keçirmək üçün yaradılmış komissiya) tərəfindən qəbul olunan müvafiq qərara əsasən vaxt əlavə olunur.

**Hansı halda yazı işi yoxlanılmır?**

**Yazı işi yoxlanılmayacaq, əgər:**

- Cavablar vərəqi və ya ştrix kod zədələnibsə;
- Abituriyent imtahan vaxtı bitdikdə işini dayandırmazsa və cavablar vərəqini təqdim etməzsə;
- Cavab vərəqində ad, soyad və ya hər hansı şəxsiyyəti müəyyənləşdirən məlumat, test tapşırığı iləəlaqəli olmayan hər hansı bir qrafik təsvir yazarsa;

Abituriyent tərəfindən Vahid Milli İmtahanın Test Prossedurlarının müəyyən olunmuş qaydanın pozulduğu təsdiqləndikdə, Şikayət Komissiyası abituriyentin yazı işini sıfır bal ilə qiymətləndirmək barədə qərar qəbul edə bilər.

**Yadda saxlayın, olmaz:**

- Cavablar vərəqini qatlamaq, ştrix kodu rəngləmək, ziyan vurmaq və.s.;
- İmtahan zamanı abituryentlərin bir-birilə danışması;
- Kömək etmək və başqasından kömək almaq cəhdi;
- Kömək alma və ya söhbət etdiyi halda abituriyent xəbərdarlıq alacaq (nəzərə alın ki, növbəti xəbərdarlıq zamanı abituriyent imtahandan qovulur).

**Abituriyentlər nəticələr haqqında əvvəlcə harada və necə öyrənirlər?**

Yazı işləri yoxlanma prosesi başaçatdıqdan sonra Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzinin veb səhifəsində Vahid Milli İmtahanın ilkinnəticələri - abituriyentlər tərəfindən hər fənn üzrəəldə edilən ballar yerləşdiriləcək. Bütün abituriyentlərinMilli İmtahanlar və Qiymətləndirmə Mərkəzinin saytında yerləşdirilmiş cavab vərəqlərini görməkimkanı olacaq. Abituriyent istədiyi fənnin cavab vərəqinin surətini identifikasiya nömrəsini göstərərək - xüsusi bir axtarış sistemi vasitəsi ilə görə və çap edə biləcək.

**Testin/testlərin qiymətləndirilməsi ilə bağlı şikayət**

**Testin/testlərin qiymətləndirilməsi ilə bağlı şikayət ərizəsi necə daxil edilir?**

Abituriyent qiymətləndirmə ilə razılaşmadıqda, Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzinin direktoru tərəfindən müəyyən edilmiş müddətdə imtahan fənnində qiymətləndirməyə etiraz edə bilər. Bu vəziyyətdə testin / testlərin qiymətləndirilməsi ilə bağlı elektron formada şikayət ərizəsi doldurmalıdır.

Şikayət ərizəsini elektron (internetlə) doldurmaq üçün lazımlı prosedurlar və vaxtları növbəti saytlarda
yerləşdiriləcək: **www.naec.ge; online.naec.ge.**

Şikayət ərizəsinin təhlil edilmə haqqı **50 lari** (bir fənn üçün) dəyərində müəyyən edilmişdir.